AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ

MƏDƏNİYYƏT ÜZRƏ ELMİ-METODİKİ
VƏ İXTİSASARTIRMA MƏRKƏZİ



# PROQRAM

UŞAQ MUSİQİ VƏ İNCƏSƏNƏT
MƏKTƏBLƏRİNİN

# T A R

SİNFİ ÜÇÜN

**Azərbaycan Respublikası**

**Mədəniyyət Nazirliyi**

**Mədəniyyət üzrə Elmi-Metodiki və**

**İxtisasartırma Mərkəzi**

# PROQRAM

## UŞAQ MUSİQİ VƏ İNCƏSƏNƏT MƏKTƏBLƏRİNİN TAR SİNFİ ÜÇÜN

**Bakı – 2024**

*Tərtibçilər:*

**Neymət Mürsəlov**

*Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin Təhlil, təlim və tədris şöbəsinin müdiri, Əməkdar artist*

**Əflaruz Məmmədov**

*Azərbaycan Milli Konservatoriyası Xalq çalğı alətləri kafedrasının dosenti, Əməkdar müəllim*

*Rəyçilər:*

**Nazim Kazımov**

*Əməkdar incəsənət xadimi, Pedaqoji elmlər namizədi, professor*

**Ramiz Əzizov**

*Azərbaycan Milli Konservatoriyası Xalq çalğı alətləri kafedrasının professoru, Əməkdar müəllim*

*Redaktor:*

**Lalə Xəlilli**

*Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin aparıcı metodisti, Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı.*

# İZAHAT VƏRƏQƏSİ

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən Uşaq musiqi və incəsənət məktəblərinin əsas vəzifələri gənc nəslin klassik dünya və Azərbaycan musiqisinin nümunələri əsasında ümumi musiqi dünyagörüşünün, bədii-estetik zövqünün və yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən mütəmadi olaraq bu müəssisələrin tədris proqramlarına baxış keçirilir. Həmin proqramlara əsasən son dövrlərdə bu və ya digər musiqi alətləri üçün bəstələnmiş əsərlər daxil edilir ki, bu da şagirdlərin təkcə Azərbaycan bəstəkarlarının əsərləri ilə deyil, həmçinin bir sıra dünya xalqlarının musiqi nümunələri ilə də tanış olmalarına imkan yaradır.

Müəllim şagirdlərin savadlı musiqiçi kimi formalaşdırılması üçün təhsilin bütün istiqamətlərinə maraq göstərməli, şagirdlərə yüksək prinsipiallıq, tələbkarlıq hissləri kimi keyfiyyətlər və eyni zamanda tədris aldıqları çalğı alətinə qarşı xüsusi qayğı hissi aşılamalıdır. İxtisas müəllimi məktəbdə şagirdin davranışına, intizamına müntəzəm surətdə nəzarət etməlidir. Sinifdə keçirilən ixtisas dərsləri zamanı müəllim şagirdin dərslərə marağını və musiqiyə məhəbbət hissini oyatmalıdır. Belə ki, müəllim xalq musiqisinin ən gözəl nümunələrini, Azərbaycan və xarici ölkə klassiklərinin yazdıqları əsərlər vasitəsilə şagirdin musiqi zövqünü formalaşdırmalıdır.

Tar sinfinin tədris-tərbiyə işinin əsas formalarından biri də sinif dərsidir. Odur ki, şagirdin musiqi məşğələlərini elə qurmaq lazımdır ki, o, verilən materialı maraqla və həvəslə mənimsəməyə can atsın.

İxtisas müəllimi şagirdin əsas sinif rəhbəri və tərbiyəçisidir. O, şagirdin hər bir hərəkətinə, davranışına fikir verməli, onun başqa fənlər üzrə müntəzəm məşğul olmasını izləməli, fənn müəllimləri və valideynlərlə sıx əlaqə saxlamalıdır.

İlk dərslərdən başlayaraq müəllim şagirdə öz ifasını dinləməyi öyrətməli və bunun nəticəsində onun ifaçılıq bacarıqlarının yaxşılaşdırılmasına nail olmalıdır. Onu da qeyd etmək lazımdır ki, mexaniki ifaçılığa qəti surətdə yol vermək olmaz, çünki bu şagirdlərin peşəkar bir musiqiçi kimi inkişaf etməsini ləngidə bilər.

Musiqi əsərləri öyrədilərkən musiqi terminləri haqqında məlumat verilməli və onların mənaları izah edilməlidir. Bundan əlavə hər bir şagirdin ifa etdiyi əsər, onun bəstəkarı və həmin dövrün musiqi mədəniyyəti haqqında müxtəlif məlumatların da verilməsi zəruridir.

Çalğının ifadəli olması, eşitmə qabiliyyətinin inkişafı, səs keyfiyyəti, intonasiya, ritm və dinamika kimi keyfiyyətlər bütün tədris illəri ərzində ardıcıl surətdə mənimsədilməli və həmişə müəllimin nəzarətində olmalıdır.

Dərs zamanı intonasiya cəhətdən dəqiq və sərbəst keçidlər üzərində işləyərkən ifa olunan musiqi əsərinin xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Ştrixlər üzərində iş aparılan zaman zəruri olan əsas şərtlər bunlardır:

1) əsərin xüsusiyyətindən asılı olaraq bu və ya digər ştrixin musiqi-ifadəlilik əhəmiyyətinin

aydınlaşdırılması;

2) onun səslənmə keyfiyyəti;

3) sağ və sol əllərin hərəkəti zamanı bunların bir-birilə əlaqələndirilməsi və məqsədəuyğun şəkildə işlədilməsi.

Bütün təhsil illərində şagirdlərin müstəqil surətdə müxtəlif musiqi əsərlərini təhlil etmələrinə, notu üzündən oxumaq vərdişlərinin inkişafına diqqət vermək lazımdır. Şagirdlərə notu üzündən oxumaq işi tapşırılarkən, onlara orta tempdə, o qədər də mürəkkəb olmayan əsərlərin verilməsi məsləhət görülür.

Müəllim ilk dərslərdən şagirdin fiziki imkanlarına diqqətlə yanaşmalıdır. Qammaların keçirilməsi şagirdlərin çalğı texnikasının inkişaf etdirilməsində, pyeslərdə tonallığın təyin edilməsində, alterasiya işarələrinin mənimsənilməsində ixtisas dərsinin zəruri olan bir vasitəsidir. Qammaların tədrisində (bütün siniflərə aid major və minor qammalarının və arpeciolarının keçilməsində) barmaqların qoyulması hər bir müəllim tərəfindən müxtəlif üsullarla (özünəməxsus xüsusi applikatura ilə) göstərilə bilər. Lakin bunların metodiki cəhətdən məqsədəuyğun şəkildə, ümumi qaydada müəyyənləşdirilməsi tövsiyə olunur.

Tar ixtisası fənni üzrə Do major, lya minor, bir, iki və üç işarəli major və minor qammaları daxil edilməklə qammaların tədrisi nəzərdə tutulmuşdur. Bunlar hər sinfin səviyyəsinə və şagirdlərin ifaçılıq texnikasına münasib müxtəlif tərzdə (ştrixlərlə) çalınmalıdır. Şagirdlərin qammalar üzrə ifa qabiliyyətini inkişaf etdirmək məqsədilə müəllim onları sinif məşğələləri zamanı müntəzəm olaraq ardıcıl surətdə keçməlidir.

İxtisas fənninin tədrisində etüdlərin keçilməsi də əsas şərtlərdən biridir. Bu, digər musiqi alətlərində olduğu kimi tarın da texniki imkanlarını şagirdlərə daha yaxşı mənimsətmək məqsədilə öyrədilir. Etüdlər barmaqlardakı çəldliyin və dəqiq ritmin bərpa edilməsinə böyük təsir göstərən bir vasitədir. Nəzərə almaq lazımdır ki, pyeslərin şagirdlər üçün seçilməsində olduğu kimi, burada da müəllim mülahizəsinə görə hər bir şagirdin bacarığına, onun ifaçılıq texnikasına uyğun olaraq etüdlər seçilməlidir. Pyeslərdə olduğu kimi etüdlərdə də bütün nüanslara diqqət verilməlidir. Müəllim şagirdə etüdü əvvəlcə ağır-ağır çaldırıb tanış etdikdən sonra təsadüf edilən nüanslar haqqında bəzi göstərişlər verə bilər. Hər bir etüdə uyğun ştrixlərin işlədilməsi, müəllimin mülahizəsi ilə bunların müxtəlif tərzdə çalınması şagirdin texniki inkişafına müsbət təsir göstərən mühüm bir vasitədir.

## İŞ PLANININ TƏRTİBİ

Müəllim iş planı tərtib edərkən tədris proqramına uyğun olaraq iş planının ardıcıl aparılması prinsipini əsas tutmalıdır. O, şagirdin musiqi-ifaçılıq imkanlarına və onun yaş xüsusiyyətlərinə uyğun gələn əsərləri iş planına daxil etməlidir. Repertuarın əsassız surətdə mürəkkəbləşdirilməsinə yol verilməməklə yanaşı, bəzi hallarda, əgər pedaqoji cəhətdən məqsədəuyğundursa, növbəti sinfin təhsil səviyyəsinə aid olan bəzi əsərləri iş planına daxil etmək mümkündür. Proqramda siniflər üzrə tövsiyə olunan pyeslərin siyahısı verilmişdir. Şagirdlərin ifaçılıq bacarıqlarını nəzərə alaraq müəllim onların iş planını başqa əsərlərlə əvəz edib tamamlaya bilər. Əlbəttə ki, bu əsərlər lazımi bədii tələblərə cavab verməli, mürəkkəblik dərəcəsi etibarilə şagirdin ifaçılıq imkanlarına uyğun olmalıdır.

İş planı not və muğam ixtisası üzrə tədris ilinin birinci və ikinci yarımilliyinin başlanğıcında tərtib edilərək şöbə müdiri tərəfindən yoxlanılıb təsdiq olunur. Müəllim ixtisas fənni üzrə iş planını tərtib edərkən şagirdin ifaçılıq qabiliyyətini və onun sinfini nəzərə alaraq, dərslikdən lazım olan nömrələrin, qammaların və pyeslərin ifa edilməsi haqqında bir sıra müxtəlif qeydlər etməlidir. Muğam fənni üzrə iş planı ixtisas fənninə aid olan qeydlərdən sonra əlavə edilir. İş planı təsdiq olunduqdan sonra şagirdlərin fərdi vərəqələrinə köçürülür və şöbə müdiri tərəfindən təsdiq edilir.

## MÜVƏFFƏQİYYƏTİN HESABA ALINMASI VƏ ŞAGİRDLƏRİN ÇIXIŞLARI

Tədris ili ərzində müəllim şagirdlərin müvəffəqiyyətləri haqqında ay ərzində bir neçə dəfə qiymətləndirmə aparmalıdır. Hər bir şagird, tədris ili ərzində ən azı iki dəfə, yəni birinci və ikinci yarımildə çıxış etməlidir. Tədris ilinin birinci və ikinci yarımillik qiymətləri əsasında şagirdlərə illik və yekun qiymətlər verilir.

İlin ikinci yarısından başlayaraq V siniflər üçün dinləyiş təşkil edilir. Həmin dinləyişdə təsadüf edilən bəzi nöqsanlar aşkar edildiyi zaman növbəti dinləyiş üçün bunların aradan qaldırılması tapşırılır.

III, V siniflər üçün tədris ilinin axırında keçirilən imtahanda, I, II və IV siniflər üçün isə yekun akademik konsertlərdə keçirilən dinləyişdə qiymətləndirmə aparılır. Məktəbi bitirən şagirdlər buraxılış imtahanında muğam ixtisası müəlliminin mülahizəsinə görə bütün tədris illəri ərzində keçdiyi muğamlardan birini ifa etməlidir.

## QISA METODİKİ GÖSTƏRİŞLƏR

Şagirdin fiziki imkanlarına və yaş göstəricisinə uyğun olaraq musiqi alətinin seçilməsi ən mühüm məsələlərdən biridir. Şagird üçün musiqi alətlərinin seçilməsi, tar tədrisinin başlanmasında zəruri olan ilkin mərhələdir. Çünki musiqi alətinin düzgün seçilməməsi şagirdin tarı düzgün tuta bilməməsinə və ümumi vəziyyətin pozulmasına səbəb ola bilər.

Müəllim şagird üçün münasib tar aləti seçərkən, onun yüngül və kiçik həcmdə olmasına, mizrabın uzun və kobud olmamasına və s. bu kimi cəhətlərə diqqət yetirməlidir.

## TAR İLƏ TANIŞLIQ

İlk dərsdə müəllim şagirdi tar ilə tanış etməli, hissələrinin adlarını ona öyrətməli, tarın tarixi və tanınmış ifaçıları haqqında ümumi məlumat verməlidir. Bundan sonra bu hissələrin bəzi spesifik xüsusiyyətləri haqqında da müəyyən məlumatlar verildikdən sonra tarın düzgün tutulması və ümumi vəziyyət haqqında göstərişlər verilməlidir.

Müəllim şagirdə tarın sinədə düzgün vəziyyətdə tutulmasını öyrədərkən bədənin düzgün saxlanılmasına, oturuşun normal vəziyyətdə olmasına, sağ qolun dirsək tərəfdən həddindən artıq yuxarı və ya aşağı saxlanılmamasına, sağ əlin və biləyin normal vəziyyətdə olmasına və s. bu kimi məsələlərə xüsusi diqqət yetirməlidir. Sağ əli sıxmadan, sərbəst halda mizrabın tutulması da əsas şərtlərdən biridir.

Sol əlin və barmaqların düzgün vəziyyəti, tarın ifasında işlənən üç barmağın vəziyyəti və bunların sıra ilə pərdələrə doğru normal istiqamətdə qoyulması və s. haqqında müəllim tərəfindən verilən izahatın, müxtəlif əyani göstərişlərin çox böyük əhəmiyyəti vardır.

Təhsilin başlanğıc mərhələsində (təqribən 2 – 3 həftə ərzində) sağ və sol əlin vəziyyətini müəyyənləşdirmək məqsədilə məşğul olmaq, mizrab vasitəsilə açıq simlərdən səs çıxarmaq, eləcə də tremola hazırlamaq üzərində işləmək məsləhət görülür. Bu mərhələdən sonra açıq simlərdə əvvəlcə üst (п), daha sonra üst və alt (пv) mizrablarla məşğələləri ağır tempdə ifa etmək lazımdır.

## MİZRABLARIN VURULMASI VƏ TREMOLA HAZIRLIĞI

Mizrab sıxılmadan və əzələ gərginliyi olmadan sərbəst tutulmalıdır. Şagirdi elə alışdırmaq lazımdır ki, sağ biləyi sıxmadan mizrabı sərbəst saxlaya bilsin. Beləliklə, üst-alt mizrabların vurulması üçün şərait yaranmış olur. Bu zaman müəllim şagirdə üst-alt mizrabların simə bir qədər aralı məsafədən zərblə vurulmasını və həmin mizrabla tarın üzünə dəyməməsini tapşırmalıdır. Şagirdlərə boş simlər üzərində aparılan məşğələlərdən sonra barmaqların pərdələr üzərində qoyulması qaydasını öyrətmək lazımdır.

Mizrabların sürətinin dərslikdə olduğu kimi tədricən artırmaq vasitəsilə məşğələlərdən istifadə edilməlidir.

## ŞTRİXLƏR HAQQINDA

Ştrixlər ifa olunan əsərin məzmununa, ruhuna, onun rəngarəngliyinə, cazibədar səslənməsinə və s. cəhətlərə xidmət etməlidir. Belə olduğu halda ştrixlərin ifa zamanı yerli-yerində işlədilməsi nəzərdən qaçmamalıdır. Məsələn, ola bilər ki, əsərin müəyyən bir frazası legato ifa olunsa daha maraqlı olar. Məhz buna görə də həmin frazadakı notlar bir mizraba, yəni tremolanın arası kəsilmədən çalınmalıdır.

## APPLİKATURA

Applikatura – barmaqların pərdələr üzərində münasib tərzdə sıra ilə düzülüşü deməkdir. Əsərin ifası zamanı barmaqların düzgün qoyuluşuna ciddi fikir verilməlidir. Applikatura əsərin

müəllifi tərəfindən təyin edilərsə, onu göstərildiyi kimi saxlamaq məsləhət görülür. Əgər applikatura əsərin müəllifi tərəfindən təyin edilməyibsə, bu zaman barmaq yerləri ixtisas müəllimi tərəfindən müəyyənləşdirilməlidir. Lakin qeyd etmək lazımdır ki, 3-cü barmaqdan sonra, yenə 3-cü barmağın və ya 2-ci barmaqdan sonra, yenə 2-ci barmağın təkrarına yalnız müstəsna hallarda yol verilə bilər. Bəzən melodiyanın ahəngdar səslənməsi üçün 2-ci barmağın işlədilməsi lazım gəlir çünki 2-ci barmaq başqa barmaqlara nisbətən daha qüvvətlidir və pərdəyə daha möhkəm oturur.

## QAMMALARIN TƏDRİSİ

Qammaların keçilməsi tarın tədrisi üçün zəruri bir vasitədir. Qammaların çalınmasında hərəkət edən barmaqlar yalnız tarın 1-ci pozisiyasını deyil, bir çox pozisiyaları əhatə etməlidir. Lakin aşağı sinif şagirdlərinin ifaçılıq texnikasına münasib (birinci sinif şagirdlərinin tar dərsliyindən və nəzəri dərslərdən keçdikləri materialı nəzərə alaraq) müəyyən edilmiş qammalar arpecioları ilə birlikdə 1-ci pozisiyada öyrədilir. Bunlar birinci sinifdə 1-ci pozisiyada çərək və səkkizlik notlarla, ikinci sinifdə isə iki oktava həcmində çərək və səkkizlik notlarla ağır tempdə ifa olunur.

Tar ixtisası fənni üzrə Do major, lya minor, bir, iki və üç işarəli major və minor qammaları daxil edilməklə qammaların tədrisi nəzərdə tutulmuşdur.

Ümumi qayda üzrə major qammalarını arpecioları ilə birlikdə əvvəlcə çərək notlarla tremola ilə, sonra səkkizlik notlarla üst mizrabla, nəhayət onaltılıq notlarla yenə də üst mizrabla, ayrıca olaraq hər birini iki dəfə, lakin minor qammalarını isə natural, harmonik və melodik şəkildə həmin ştrixlə hərəsini bir dəfə (arpecioları iki dəfə) təkrar etməklə çaldırmaq lazımdır. Minor qammalarının 3 halda ifa olunmağı zəruridir.

Qeyd etmək lazımdır ki, bütün qammalarda çərək notların çalınması üçün tremola edilən zaman mizrabın üzülməməsinə, yəni arası kəsilmədən birləşmiş halda (legato) olmasına xüsusi diqqət verilməlidir.

## MƏŞĞƏLƏLƏR VƏ ETÜDLƏR

Tarın tədrisində məşğələlərin və etüdlərin keçilməsi əsas şərtlərdən biridir. Başqa musiqi alətlərində olduğu kimi bunlar tarın texniki imkanlarını şagirdlərə daha yaxşı mənimsətmək məqsədilə öyrədilir. Etüdlər barmaqlardakı cəldliyin, çevikliyin, texniki ifaçılıq məharətinin inkişafına, müxtəlif tərzdə vurulan mizrablarla işlədilən barmaqların birlikdə uyğun və sərbəst hərəkətinə, möhkəm və dəqiq ritmin bərpa edilməsinə və s. müsbət təsir göstərən bir vasitədir.

S. Rüstəmovun “Tar məktəbi” dərsliyində verilmiş etüdlərin tarın tədrisində böyük əhəmiyyəti vardır. Eyni zamanda həmin kitabda verilmiş (aşağı və yuxarı sinif şagirdləri üçün) bir sıra məşğələlərin də keçilməsi zəruridir. “Tar məktəbi” dərsliyindən başqa S. Rüstəmovun “Tar üçün melodik etüdlər”, A. Gərayın “Muğam etüdləri” məcmuələrindən, Ə. Məmmədlinin “Tar üçün etüdlər”, habelə F. Volfart, Q. Kayzer və F. Mazasın skripka üçün yazdıqları məcmuələrdən də istifadə edilə bilər.

## MUĞAM İXTİSASI HAQQINDA

Azərbaycan xalq musiqi sənətinin ən parlaq yaradıcılıq nümunəsi muğamlardır. Bunlar musiqimizin təməlidir. Muğam improvizasiya yolu ilə yayılmış zəngin bir xəzinədir. Azərbaycan xalq musiqisi, öz spesifik xüsusiyyətlərinə görə muğamlardan, mahnılardan, təsniflərdən, rəqslərdən, rənglərdən, şikəstə və aşıq musiqisindən ibarət bir sıra musiqi janrlarına mənsubdur. Ona görədir ki, tar sinfinin muğam ixtisası proqramına muğamların tərkib hissələrini əhatə edən bir çox xalq mahnıları, rəngləri, ritmik muğamları və rəqsləri əlavə edilmişdir.

Muğamın birinci sinif şagirdinə öyrədilməsi olduqca çətindir. Bunu nəzərə alaraq birinci sinif proqramına muğamla sıx bağlı olan bir çox mahnılar, rənglər, rəqslər daxil edilmişdir.

Asandan çətinə doğru prinsipinə əsaslanaraq birinci sinif şagirdinə müxtəlif növ məşğələlər keçmək lazımdır. Belə məşğələlər hər bir müəllimin öz mülahizəsinə görə tərtib edilərək tədris olunmalıdır.

## BİRİNCİ SİNİF (NOT)
## İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİL** – tar ilə tanışlıq, tarın düzgün tutulması, açıq simlər üzərində məşğələlərin keçilməsi və barmaqların qoyulması, not işarələrinin mənasının öyrədilməsi qaydaları (1-ci pozisiyanın notları ilə tanışlıq).

S.Rüstəmovun "Tar məktəbi" dərsliyinin 1-ci nömrəsindən 30-cu nömrəsinə qədər keçməli.

**II YARIMİL** – iki oktava həcmində do səsinə kimi notlarla tanışlıq. Do major (C Dur), Fa major (F Dur), Re major (D Dur), re minor (d moll) qammalarını arpecioları ilə birlikdə I pozisiyada çərək və səkkizlik notlarla ağır tempdə çalmalı.

S.Rüstəmovun "Tar məktəbi" dərsliyinin 30-cu nömrəsindən 62-ci nömrəsinə qədər keçməli.

Müəllim istedadlı və qavrama qabiliyyətli şagirdlərə proqrama uyğun olaraq tədris ili ərzində 6 – 8 pyes keçməli.

Tədris zamanı müəllimin məqsədi hər bir şagirdin bünövrəsini mükəmməl qurmaq, onu düzgün istiqamətə yönəltməkdir.

## TƏXMİNİ REPERTUAR

### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | | |
|---|---|---|
| Ü. Hacıbəyli | Yaxşı yol | S. Hacıyev, O. Quliyev, "Pyeslər məcmuəsi", "İşıq" nəşriyyatı, Bakı – 1976. |
| | Pilotlar | (Yenə oradan) |
| | Beşik mahnısı | T. Atakişiyev və Y. Barştak, "Skripkada çalmaq üçün ibtidai tədris kitabı"ndan № 43, "Azərnəşr", Bakı – 1962. |

| | | |
|---|---|---|
| F. Əmirov | Qatar | S. Hacıyev, O. Quliyev, “Pyeslər məcmuəsi”, “İşıq” nəşriyyatı, Bakı – 1976. |
| | Quşlar | (Yenə oradan) |
| | Məktəblilər nəğməsi | (Yenə oradan) |
| | Marş | (Yenə oradan) |
| | Zarafat | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| C. Hacıyev | Qəmli nəğmə | T. Atakişiyev və Y. Barştak, “Skripkada çalmaq üçün ibtidai tədris kitabı”ndan № 39, “Azərnəşr”, Bakı – 1962. |
| C. Cahangirov | Köhlən atım | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| S. Ələsgərov | Sözsüz mahnı | S. Hacıyev, O. Quliyev, “Pyeslər məcmuəsi”, “İşıq” nəşriyyatı, Bakı – 1976. |
| Ə. Abbasov | Nəğmə | T. Atakişiyev və Y. Barştak, “Skripkada çalmaq üçün ibtidai tədris kitabı”ndan № 14, “Azərnəşr”, Bakı – 1962. |
| M. Əhmədov | Melodiya | Yenə oradan № 27 |
| T. Bakıxanov | Günəş | “Uşaq mahnıları”, “Azərnəşr”, Bakı – 1968. |
| R. Mustafayev | Güllər | (Yenə oradan) |
| T. Hacıyev | Balaca neftçiyəm | (Yenə oradan) |
| M. Nəsirbəyov | Yağış | T. Atakişiyev və Y. Barştak, “Skripkada çalmaq üçün ibtidai tədris kitabı”ndan № 12, “Azərnəşr”, Bakı – 1962. |
| V. Adıgözəlov | Kiçik marş | S. Hacıyev, O. Quliyev “Pyeslər məcmuəsi”, “İşıq” nəşriyyatı, Bakı – 1976. |
| O. Zülfüqarov | Cü-cü | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| | Saat | R. Əzizov, “Azərbaycan bəstəkarlarının əsərləri”, ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| | Maşınımı sürürəm | N. Kazımov, “Pedaqoji təcrübə” dərs vəsaiti, Bakı – 2007; |
| | İdman | R. Əzizov, “Azərbaycan bəstəkarlarının əsərləri”, ADPU-nun mətbəəsi, Bakı – |

| | | |
|---|---|---|
| | Qar yağır | 2020; (Yenə oradan) |

## XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | | |
|---|---|---|
| D. Kabalevski | Kiçik polka | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| | Marşsayağı | T. Atakişiyev və Y. Barştak, "Skripkada çalmaq üçün ibtidai tədris kitabı"ndan № 6, "Azərnəşr", Bakı – 1962. |
| N. Preobrajenski | Günəş işığı ilə | T. Atakişiyev və Y. Barştak, "Skripkada çalmaq üçün ibtidai tədris kitabı"ndan № 36, "Azərnəşr", Bakı – 1962. |
| N. Baklanova | Rus xalq mahnısı | M. Məmmədov "Pillə-pillə irəli", III cild "Xarici ölkə bəstəkarlarının əsərləri", "Ecoprint", Bakı – 2017 |
| M. Magidenko | Pyes | (Yenə oradan) |
| A. Muhəmmədov | Küknar ağacı | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| T. Zaxarina | Polka | (Yenə oradan) |
| M. Krasev | Küknar ağacı | (Yenə oradan) |
| | Şən qazlar | (Yenə oradan) |
| V. İvannikov | Gənc döyüşçü mahnısı | N. Nəsirbəyov "Musiqi təlimi" dərsliyi, "İşıq" nəşriyyatı, Bakı – 1976. |
| V. Neçayev | Nəğmə | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| P. İvanov və Patkoviç | Toz ağacı | T. Atakişiyev və Y. Barştak, "Skripkada çalmaq üçün ibtidai tədris kitabı"ndan № 51, "Azərnəşr", Bakı – 1962. |
| Litva xalq mahnısı | İki cücə | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| Rus xalq mahnısı | Bağda və ya bostanda | (Yenə oradan) |
| Ukrayna xalq mahnısı | Ah, çiqune, çiqune | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə |

| | | |
|---|---|---|
| | | bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| Belarus xalq mahnısı | Savka və Qrişka | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| Çex xalq mahnısı | Yaşıl çəmənlikdə | (Yenə oradan) |
| Ç. Küi | Məzəli | (Yenə oradan) |
| A. Filippenko | Mahnı | (Yenə oradan) |
| V. Kalinnikov | Durna | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| | Kölgələr | (Yenə oradan) |
| A. Komarovski | Mahnı | (Yenə oradan) |
| A. Eşpay | Bülbül | (Yenə oradan) |
| İ.S. Bax | Menuet | T. Atakişiyev və Y. Barştak, "Skripkada çalmaq üçün ibtidai tədris kitabı"ndan № 41, "Azərnəşr", Bakı – 1962. |
| | Burre | T. Atakişiyev və Y. Barştak, "Skripkada çalmaq üçün ibtidai tədris kitabı"ndan № 55, "Azərnəşr", Bakı – 1962. |
| L. Bethoven | Mahnı | T. Atakişiyev və Y. Barştak, "Skripkada çalmaq üçün ibtidai tədris kitabı"ndan № 49, "Azərnəşr", Bakı – 1962. |
| V. Motsart | Çobanın mahnısı | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## BİRİNCİ SİNİF (MUĞAM)
## İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİLDƏ** proqramda verilən təxmini repertuardan 3 – 4 kiçik həcmli Azərbaycan xalq mahnıları, rəqsləri və rəngləri keçməli.

**II YARIMİLDƏ** proqramda verilən təxmini repertuardan 6 – 8 Azərbaycan xalq mahnıları,

rəqsləri və rəngləri keçməli.

## Azərbaycan xalq mahnıları

Evləri var xana-xana
Laylay
Aman ovçu
Küçələrə su səpmişəm
Qubanın ağ alması
Laçın
Sona xanım
Ay gözəl-gözəl
Sudan gələn sürməli qız
Azərbaycan (aşıq mahnısı)

## Azərbaycan xalq rəqsləri

Darçını
Yüzbiri
Gülgəzi
Uzundərə
Brilyant
Qəşəngi
Nəlbəki
Bəxtəvəri
Azərbaycan
Yaylıq

## Rənglər

Bayatı-Kürd rəngi
Mahur-Hindi rəngi
Rast rəngi
Qatar rəngi
Bayatı-Şiraz rəngi
Çahargah rəngi
Şur rəngi
Kürd-Şahnaz rəngi
Şüştər rəngi
Segah rəngi

---

***Qeyd:** Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## AKADEMİK DİNLƏYİŞLƏR

**I yarımildə yanvar ayında keçirilən qapalı dinləyişin tələbatı:**

keçilənlərin ətrafında sorğu;
dərslikdən üç məşğələ çalmalı;
iki müxtəlif xarakterli pyes ifa etmək.

**II yarımildə iyun ayında keçirilən akademik dinləyişin tələbatı:**

etüdvari bir nömrə (əzbər);
üç müxtəlif xarakterli pyes;
iki mahnı, rəng və ya rəqs çalmalı.

---

***Qeyd:*** *Tədris ili ərzində şagirdin qiymətləndirilməsi dinləyiş və imtahan komissiyasının rəyilə üst-üstə düşməli və müəllimin fikri nəzərə alınmalıdır.*

## İKİNCİ SİNİF (NOT)
## İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:

**I YARIMİL** – tarın köklənmə qaydasının öyrədilməsi. Do major (C Dur), Fa major (F Dur) qammalarını iki oktava həcmində çərək və səkkizlik notlarla ağır tempdə çalmalı.
S.Rüstəmovun “Tar məktəbi” dərsliyinin 62-ci nömrəsindən 85-ci nömrəsinə qədər keçməli.

**II YARIMİL** – Mi bemol major (Es Dur), re minor (d moll) qammalarını iki oktava həcmində çərək və səkkizlik notlarla ağır tempdə çalmalı.
S.Rüstəmovun “Tar məktəbi” dərsliyinin 85-ci nömrəsindən 106-cı nömrəsinə qədər keçməli (88-ci və 89-cu nömrələri keçməmək şərtilə).

Tədris ili ərzində 6 – 8 pyes keçməli.

---

***Qeyd:*** *Yuxarıda qeyd olunan qammaları müəllim şagirdin texniki imkanlarını nəzərə alaraq onaltılıq notlarla keçə bilər.*

## TƏXMİNİ REPERTUAR
### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | | |
|---|---|---|
| Ü. Hacıbəyli | Axşam oldu | S. Hacıyev, O. Quliyev, “Pyeslər məcmuəsi”, “İşıq” nəşriyyatı, Bakı – 1976; |
| | Vətən ordusu | R. Əzizov, “Azərbaycan |

| | | |
|---|---|---|
| | | bəstəkarlarının əsərləri", ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| | Ey səba yeli (duet) | S. Hacıyev, O. Quliyev, "Pyeslər məcmuəsi", "İşıq" nəşriyyatı, Bakı – 1976; |
| | Qızlar xoru (duet) | (Yenə oradan) |
| M. Maqomayev | Qəmgin mahnı | (Yenə oradan) |
| A. Zeynallı | Beşik mahnısı | (Yenə oradan) |
| Q. Qarayev | Sülh haqqında mahnı | M. Kərimov, "Pyeslər məcmuəsi", "Oka Ofset" nəşriyyatı, Bakı – 2005 |
| | Gənclik mahnısı | (Yenə oradan) |
| | Kiçik vals | (Yenə oradan) |
| F. Əmirov | Bizim həyət | "Bip-bipin nəğməsi", Azərnəşr, Bakı – 1962. |
| | Bip-bipin nəğməsi | (Yenə oradan) |
| | Quzum | (Yenə oradan) |
| T. Quliyev | Lay-lay | M. Kərimov, "Pyeslər məcmuəsi", "Oka Ofset" nəşriyyatı, Bakı – 2005 |
| S. Rüstəmov | Marş | M. Məmmədov "Pillə-pillə irəli", Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| | Ağ kəpənək | (Yenə oradan) |
| | Quzum | (Yenə oradan) |
| | Uşaq və dovşan | R. Əzizov, "Azərbaycan bəstəkarlarının əsərləri", ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| | Bağçamız | (Yenə oradan) |
| | Mahnı lya minor | (Yenə oradan) |
| C. Cahangirov | Uşaqlar | R. Əzizov, "Azərbaycan bəstəkarlarının əsərləri", ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| M. Əhmədov | Bayram mahnısı | M. Məmmədov "Pillə-pillə irəli", Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| | Zarafat | (Yenə oradan) |
| | Tapmaca – nəğmə | (Yenə oradan) |
| | Balacalar marşı | R. Əzizov, "Azərbaycan bəstəkarlarının əsərləri", ADPU-nun mətbəəsi, Bakı – 2020; |

| | | |
|---|---|---|
| A. Rzayeva | Mahnı | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| | Sürücü | R. Əzizov, “Azərbaycan bəstəkarlarının əsərləri”, ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| | Bizim zəmi | (Yenə oradan) |
| | Balaca kapitan | (Yenə oradan) |
| Ə. Abbasov | Aşıqsayağı | S. Hacıyev, O. Quliyev, “Pyeslər məcmuəsi”, “İşıq” nəşriyyatı, Bakı – 1976 |
| O. Zülfüqarov | Nənə | R. Əzizov, “Azərbaycan bəstəkarlarının əsərləri”, ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| | Payız | (Yenə oradan) |
| | Qorxaqlıq | (Yenə oradan) |
| | Kuklam | (Yenə oradan) |
| R. Şəfəq | Kosmos və mən | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| T. Hacıyev | Balaca neftçiyəm | Q. Məmmədov, “Pyeslər məcmuəsi”, “Renessans – A” nəşriyyat evi, Bakı – 2020 |

## XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | | |
|---|---|---|
| İ. Rozenfeld | Uçuşa | M. Məmmədov “Pillə-pillə irəli”, I cild “Xarici ölkə bəstəkarlarının əsərləri”, Bakı-MBM NPN, 2015 |
| L. Koqan | Yeni il yolkası | M. Kərimov, “Pyeslər məcmuəsi”, “Oka Ofset” nəşriyyatı, Bakı – 2005 |
| M. Qlinka | Bülbül | M. Məmmədov “Pillə-pillə irəli”, I cild “Xarici ölkə bəstəkarlarının əsərləri”, Bakı-MBM NPN, 2015 |
| P. Çaykovski | Üzümlük | (Yenə oradan) |
| | Rəqs | (Yenə oradan) |
| | Durna | (Yenə oradan) |
| A. Lyadov | Zarafat | (Yenə oradan) |
| L. Bekman | Küknar ağacı | (Yenə oradan) |
| F. Leşinskaya | Polka | (Yenə oradan) |

| | | |
|---|---|---|
| Q. Persell | Ariya | (Yenə oradan) |
| V. İvannikov | Hörümçək | (Yenə oradan) |
| N. Baklanov | Etüd | (Yenə oradan) |
| | Marş | (Yenə oradan) |
| A. Qedike | Rəqs | (Yenə oradan) |
| S. Maykapar | Balaca komandir | M. Kərimov, "Pyeslər məcmuəsi", "Oka Ofset", Bakı – 2005 |

---

***Qeyd:*** *Müəllim mülahizəsinə görə proqramda verilən təxmini repertuarı başqaları ilə də əvəz edə bilər.*

## İKİNCİ SİNİF (MUĞAM)
## İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:
Tarın köklənmə qaydasının öyrədilməsi;
Bayatı-Kürd və Mahur-Hindi muğamlarını sadə barmaqlarla aşağıdakı şöbələrlə keçməli:

**Bayatı-Kürd:** Bayatı-kürd
Bayatı-əcəm
Azərbaycan ilə ayaq

**Mahur-Hindi:** Bərdaşt
Mayə
Üşşaq
Hüseyni
Vilayəti
Mahura ayaq

### TƏDRİS İLİ ƏRZİNDƏ KEÇİRİLƏN TEXNİKİ DİNLƏYİŞLƏR

Noyabr ayı – qamma, etüd və musiqi terminləri.
Mart ayı – qamma, etüd və musiqi terminləri.

### AKADEMİK DİNLƏYİŞLƏR

**I yarımildə (yanvar) keçirilən akademik dinləyişin tələbatı:**

üç müxtəlif xarakterli pyes;
bir muğam.

**II yarımildə (iyun) keçirilən akademik dinləyişin tələbatı:**

üç müxtəlif xarakterli pyes;
bir muğam.

---

***Qeyd:*** *Tədris ili ərzində şagirdin qiymətləndirilməsi dinləyiş və imtahan komissiyasının rəyilə üst-üstə düşməli və müəllimin fikri nəzərə alınmalıdır.*

## ÜÇÜNCÜ SİNİF (NOT)
## İLLİK TƏLƏBAT

Tədris ili müddətində şagird aşağıdakıları keçməlidir:
Tarın köklənmə qaydasının öyrədilməsi.
S.Rüstəmovun "Tar məktəbi" dərsliyindən 107 və 122 nömrəli etüdləri keçməli.
S.Rüstəmovun "Tar üçün melodik etüdlər" məcmuəsindən il ərzində 2 – 4 etüd keçməli.

**I YARIMİL** – Do major (C Dur) - lya minor (a moll), Sol major (G Dur) - mi minor (e-moll) qammalarını iki oktava həcmində çərək, səkkizlik və onaltılıq notlarla ağır tempdə çalmalı.
S.Rüstəmovun "Tar məktəbi" dərsliyinin 106-cı nömrəsindən 138-ci nömrəsinə qədər keçməli.

**II YARIMİL** – Fa major (F Dur), re minor (d moll) qammalarını iki oktava həcmində çərək, səkkizlik və onaltılıq notlarla ağır tempdə çalmalı.
S.Rüstəmovun "Tar məktəbi" dərsliyinin 138-ci nömrəsindən 158-ci nömrəsinə qədər keçməli.
Tədris ili ərzində 6 – 8 pyes keçməli.

## TƏXMİNİ REPERTUAR
### AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | | |
|---|---|---|
| Ü. Hacıbəyli | Döyüşçülər marşı | S. Hacıyev, O. Quliyev, "Pyeslər məcmuəsi", "İşıq" nəşriyyatı, Bakı – 1976; |
| | Əsgərin ariyası "Arşın mal alan" operettasından | S. Hacıyev, O. Quliyev, "Pyeslər məcmuəsi", "İşıq" nəşriyyatı, Bakı – 1976; |
| | Əsgərin şadlığı "Arşın mal alan" operettasından | A. Abbasov "Balaca tarzən", Tar ilə fortepiano üçün |

| | | |
|---|---|---|
| | | köçürmə və işləmələr, “Ecoprint” nəşriyyatı, Bakı – 2017. |
| | Qızların xoru (II pərdə) “Leyli və Məcnun” operasından | M.Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| | Qızların xoru – duet (IV pərdə) “Leyli və Məcnun” operasından | (Yenə oradan) |
| | Aşıqsayağı | N. Kazımov, “Tar ilə fortepiano üçün pyeslər” məcmuəsi. “Çaşıoğlu”, Bakı – 1999 |
| Q. Qarayev | Dəniz neftçilərinin mahnısı | S. Hacıyev, O. Quliyev, “Pyeslər məcmuəsi”, “İşıq” nəşriyyatı, Bakı – 1976; |
| | Dəniz neftçilərinin mahnısı (duet) | S. Sultanov, Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri, “Pyeslər məcmuəsi” “Aspoliqraf” nəşriyyatı, Bakı – 2014 |
| F. Əmirov | Skertso | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| | Azərbaycan | M. Kərimov, “Pyeslər məcmuəsi”, “Oka Ofset” nəşriyyatı, Bakı – 2005 |
| | Noktürn | (Yenə oradan) |
| S. Hacıbəyov | Mingəçevir haqqında mahnı | “Azərbaycan bəstəkarlarının seçilmiş əsərləri”ndən |
| | Oynaq topum | R. Əzizov, “Azərbaycan bəstəkarlarının əsərləri”, ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| Niyazi | Marş | S. Hacıyev, O. Quliyev, “Pyeslər məcmuəsi”, “İşıq” nəşriyyatı, Bakı – 1976; |
| | Laylay | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| T. Quliyev | Baxçamız | (Yenə oradan) |
| | Laylay | M. Kərimov, “Pyeslər məcmuəsi”, “Oka Ofset” nəşriyyatı, Bakı – 2005 |
| | Vətən haqqında mahnı | “Azərbaycan bəstəkarlarının seçilmiş əsərləri”ndən. |
| | Moskva haqqında mahnı | (Yenə oradan) |
| Ə. Bədəlbəyli | Marş | Pyeslər məcmuəsi, İşıq nəşriyyatı, Bakı – 1976. |

| | | |
|---|---|---|
| C. Cahangirov | Vətənimdir | Mahnılar məcmuəsi, Azərnəşr, Bakı – 1966 |
| R. Hacıyev | Gənclik marşı | “Azərnəşr”, Bakı, 1958 |
| R. Mustafayev | Mən neftçiyəm | Mahnılar məcmuəsi, Azərnəşr, Bakı – 1965 |
| X. Mirzəzadə | Təzə il nəğməsi | “Azərbaycan bəstəkarlarının seçilmiş əsərləri”ndən |
| T. Hacıyev | Xəzər | (Yenə oradan) |
| Q. Hüseynli | Cücələrim | N. Kazımov, “Tar ilə fortepiano üçün pyeslər” məcmuəsi. “Çaşıoğlu”, Bakı – 1999 |
| S. Rüstəmov | Dəstə rəhbəri | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| | Şanlı ordumuz | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| | Sərhədçilərin marşı | N. Kazımov, “Tar ilə fortepiano üçün pyeslər” məcmuəsi. “Çaşıoğlu”, Bakı – 1999 |
| | Marş (duet) | S. Hacıyev, O. Quliyev Pyeslər məcmuəsi “İşıq” nəşriyyatı, Bakı – 1976; |
| | Layla | R. Əzizov, “Azərbaycan bəstəkarlarının əsərləri”, ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| | Alagöz | (Yenə oradan) |
| | Moskva illəri | “Könül mahnısı” məcmuəsi, Azərnəşr, Bakı – 1958. |
| | Düşərgəmiz | R. Mirişli, “Kamança məktəbi” dərsliyi, № 61. |
| O. Zülfüqarov | Sərçə | R. Əzizov, “Azərbaycan bəstəkarlarının əsərləri”, ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| | Gənc futbolçular | “Azərbaycan bəstəkarlarının seçilmiş əsərləri”ndən |
| R. Mirişli | Bayram axşamlarında | M. Məmmədov “Pillə-pillə irəli”, Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə, Bakı-MBM, 2014 |
| Ə. Abbasov | Şur ladına pyes | S. Hacıyev, Pyeslər toplusu (II hissə), “Orxan” NPN, Bakı – 2003 |
| A. Rzayeva | Vətənpərvərlər marşı | (Yenə oradan) |
| | Zınqırovlar | R. Əzizov, “Azərbaycan |

| | | |
|---|---|---|
| | | bəstəkarlarının əsərləri", ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| B. Kərimov | Səhərcik | Pyeslər "Azərnəşr" Bakı, 1971 |
| C. Quliyev | Əsgər marşı | R. Əzizov, "Azərbaycan bəstəkarlarının əsərləri", ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| E. Sabitoğlu | Sıravi Əhməd | R. Əzizov, "Azərbaycan bəstəkarlarının əsərləri", ADPU-nun mətbəəsi, Bakı – 2020; |
| | Balıqçılar nəğməsi | Lirik mahnılar məcmuəsi, "Azərnəşr", Bakı – 1965 |
| H. Nəcəfova | Azərbaycan | Mahnılar məcmuəsi, "İşıq" nəşriyyatı, Bakı – 1975. |

## XARİCİ ÖLKƏ BƏSTƏKARLARININ ƏSƏRLƏRİ

| | | |
|---|---|---|
| İ. Haydn | Andante | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| V. Motsart | Vals | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |
| | Laylay | (Yenə oradan) |
| | Volınka | (Yenə oradan) |
| V. Jiqalov | Latış xalq rəqsi | (Yenə oradan) |
| A. Rubinşteyn | Trepak | (Yenə oradan) |
| A. Jilinskis | Latış xalq polkası | (Yenə oradan) |
| D. Şostakoviç | Rəqs | (Yenə oradan) |
| | Yaxşı gün | (Yenə oradan) |
| | Qəmgin mahnı | (Yenə oradan) |
| K. Veber | Rəqs | (Yenə oradan) |
| R. Şuman | Kiçik romans | N. Kazımov, "Pyeslər məcmuəsi" tar ilə fortepiano üçün köçürmələr, Bakı – 1995 |
| M. Qlinka | Polka | N. Kazımov "Pedaqoji təcrübə", Bakı – 2007. |
| | Torağay | "Azərnəşr", Bakı – 1953. |
| A. Qedike | Marş | M. Məmmədov "Pillə-pillə irəli", I cild "Xarici ölkə bəstəkarlarının əsərləri", Bakı-MBM NPN, 2015 |

| | | |
|---|---|---|
| İ. Dunayevski | Vətən haqqında mahnı | (Yenə oradan) |
| A. Petrov | Mənim qəlbimdə rahatlıq yoxdur | (Yenə oradan) |
